

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 31 (23.443)

*15 fevral 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 14-də 56-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına səfəri başlayıb.

Dövlətimizin başçısı həmin gün Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norov ilə görüşüb, sonra "Enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masada iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Moldova Respublikasının Prezidenti İqor Dodon və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb.

Prezident İlham Əliyev həmin gün Münxendə Küveyt Dövlətinin Baş Naziri Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah və Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurer ilə görüşüb.

Dövlətimizin başçısı fevralın 14-də Münxendə Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol və "Leonardo" şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilə görüşüb.

## "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada idmanın inkişafının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi bu Sərəncamın 1-ci hissəsində qeyd olunan Dövlət Proqramında nəzərdə tutulmuş tədbirləri əlaqələndirsin və icrası ilə bağlı ildə bir dəfə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 fevral 2020-ci il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## 2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı

### I. Giriş

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı sahəsində aparılan ardıcıl tədbirlər əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində böyük rol oynayır. Muxtar respublikada fəaliyyət göstərən 58 idman müəssisəsi və 886 idman obyektində 40 minə yaxın uşaq və gənc idmanla məşğul olur. Qurulan müasir idman infrastrukturu Naxçıvanda beynəlxalq və ölkə səviyyəli yarışların keçirilməsinə şərait yaradır.

2019-cu ildə muxtar respublikada 5 beynəlxalq, 1 ölkə səviyyəli olmaqla, 386 idman tədbiri keçirilmiş, idmançılarımız Dünya və Avropa çempionatlarında, beynəlxalq turnirlərdə, Azərbaycan birinciliklərində yüksək nailiyyətlər əldə edərək muxtar respublikamızın idman nüfuzunu qaldırmağa müvəffəq olmuşlar.

Muxtar respublikada idmanın inkişafı sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə hazırlanan proqram müasir dövrün reallıqları nəzərə alınmaqla uşaq və gənclərin idmana cəlbinin kütləviləşməsinə, əhalinin fiziki sağlamlığının qorunmasına yeni imkanlar yaradacaqdır.

### II. Proqramın məqsədi

Proqramın məqsədi aşağıdakılardan ibarətdir:

- əhalidə sağlam həyat tərzinin formalaşdırılması;
- uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi;
- istedadlı idmançıların üzə çıxarılması;
- bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi;
- idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılması.

### III. Gözlənilən nəticələr

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasından gözlənilən nəticələr aşağıdakılardır:

- cəmiyyətdə sağlam həyat tərzi formalaşacaq;
- bədən tərbiyəsi və idman kütləvi xarakter alacaq;
- beynəlxalq əməkdaşlıq imkanları genişlənəcəkdir.

### IV. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər dövlət büdcəsinin vəsaitləri və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

### V. Proqramın həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI

| № | Tədbirin məzmunu | İcraçı | İcra müddəti |
|---|---|---|---|
| **1. Muxtar respublikada idmanın kütləviliyini artırmaq üçün həyata keçirilən tədbirlər** | | | |
| 1.1. | Əhalinin fiziki inkişafa, sağlam həyat tərzinə olan tələbatının ödənilməsi, idmanın kütləviliyinin təmin edilməsi | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri | Mütəmadi |
| 1.2. | İdman sahəsində qarşılıqlı fəaliyyət planlarının hazırlanıb həyata keçirilməsi | Gənclər və İdman Nazirliyi, idman federasiyaları | İldə bir dəfə |
| 1.3. | Gənclərin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi, onların vətənin müdafiəsinə hazırlanması istiqamətində tədbirlərin görülməsi, hərbi idman oyunlarının təşkili | Naxçıvan Hərbi Qarnizonu, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi | Mütəmadi |
| 1.4. | Muxtar respublikada idmanın müxtəlif növlərinin inkişafı məqsədilə federasiya, klub və digər ictimai birliklərin ölkə və beynəlxalq səviyyəli yarışlarda iştirakının təmin edilməsi | Gənclər və İdman Nazirliyi, idman federasiyaları | Mütəmadi |
| 1.5. | "İdman festivalı"nın keçirilməsi | Gənclər və İdman Nazirliyi, idman federasiyaları | İldə bir dəfə |
| 1.6. | Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idman sahəsində investisiya mühitinin yaradılması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, pullu xidmət növlərinin inkişaf etdirilməsi | Gənclər və İdman Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2020-2025-ci illər |
| 1.7. | Muxtar respublikada idman turizminin inkişaf etdirilməsi | Gənclər və İdman Nazirliyi, Turizm Departamenti | Mütəmadi |
| 1.8. | Bütün təhsil müəssisələrində idman klublarının yaradılması və idmanın müxtəlif sahələri üzrə şagird və tələbələrin idmana cəlb olunması | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, ali və orta ixtisas təhsili müəssisələri | Mütəmadi |
| 1.9. | Bədən tərbiyəsi və idman vasitəsilə xəstəliklərin, zərərli vərdişlərin qarşısının alınması, bu sahədə tədbirlərin görülməsi, layihələrin hazırlanması | Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi | Mütəmadi |
| 1.10. | Sağlamlıq imkanları məhdud şəxslərin bədən tərbiyəsi və idman vasitəsilə reabilitasiyası, sosial adaptasiyası və cəmiyyətə inteqrasiyasının təmin edilməsi | Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Mütəmadi |
| **2. Kadr təminatı və tədrisin təşkili** | | | |
| 2.1. | Bədən tərbiyəsi və idman sahəsində tədrisin səviyyəsinin yüksəldilməsi, pedaqoji kadrların peşə hazırlığının təkmilləşdirilməsi və tədrisin ixtisaslı müəllimlər tərəfindən aparılmasının təmin edilməsi | Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti | Mütəmadi |
| 2.2. | Uşaq-gənclər idman məktəblərinin fəaliyyətinin gücləndirilməsi, təhsil müəssisələrində idman yarışları və spartakiadaların təşkil edilməsi | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| 2.3. | Muxtar respublikaya təcrübəli məşqçilərin dəvət olunması, məşqçilərə təlimlərin, idmançılara nümunəvi dərslərin təşkili | Gənclər və İdman Nazirliyi, idman federasiyaları | Mütəmadi |
| 2.4. | Ali təhsil müəssisələrində hamiliyə götürülən ixtisaslarda gənclərlə işin aparılması, istedadlı gənclərin muxtar respublikanın idman həyatında aktiv iştirakının təmin edilməsi | Gənclər və İdman Nazirliyi | Mütəmadi |
| 2.5. | Ali təhsil müəssisələrində idman sahəsi üzrə kadr hazırlığı işinin gücləndirilməsi | Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti | 2020-2022-ci illər |
| 2.6. | Muxtar respublikada idmanın müxtəlif növləri üzrə məktəblərin yaradılması | Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Gənclər və İdman Nazirliyi, idman federasiyaları | 2020-2025-ci illər |
| | **3. Bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın möhkəmləndirilməsi** | | |
| 3.1. | İdman infrastrukturunun modernləşdirilməsi | Gənclər və İdman Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, idman federasiyaları | 2020-2025-ci illər |
| 3.2. | Yaşayış yerləri və kütləvi istirahət zonalarında əhalinin bədən tərbiyəsi və idmanla məşğul olması üçün xüsusi sahələrin ayrılması | Gənclər və İdman Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri | 2020-2025-ci illər |
| 3.3. | İstirahət parklarında sadə idman qurğularının quraşdırılması və idman guşələrinin yaradılması, əhalinin bütün təbəqələrinin bu qurğulardan istifadəsi üçün tədbirlərin görülməsi | Gənclər və İdman Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, şəhər və rayon icra hakimiyyətləri | 2020-2025-ci illər |
| 3.4. | Ağbulaq Xizəksürmə Mərkəzinin fəaliyyətinin beynəlxalq standartlar səviyyəsində qurulması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Turizm Departamenti | 2020-ci il |
| 3.5. | Sağlamlıq imkanları məhdud şəxslər üçün İdman Kompleksinin yaradılması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Paralimpiya Federasiyası | 2023-cü il |
| 3.6. | Ordubad Şəhər Stadionunun yenidən tikilməsi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 2020-ci il |
| 3.7. | Muxtar respublikanın kəndlərində stadionların müasir tələblər səviyyəsində qurulması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, rayon icra hakimiyyətləri | 2020-2025-ci illər |
| | **4. İdman sahəsində beynəlxalq əməkdaşlıq** | | |
| 4.1. | İdman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, idmançıların beynəlxalq turnirlərdə iştirakının təmin edilməsi | Gənclər və İdman Nazirliyi, idman federasiyaları | Mütəmadi |
| 4.2. | Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Naxçıvan Open" Beynəlxalq Şahmat Festivalının keçirilməsi | Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Gənclər və İdman Nazirliyi, Şahmat Federasiyası | 2020-2025-ci illər |
| 4.3. | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş cüdo üzrə Beynəlxalq turnirin keçirilməsi | Gənclər və İdman Nazirliyi, Güləş Federasiyası | May 2020-ci il |
| 4.4. | Naxçıvan şəhərində "Karate üzrə Dünya Kuboku"nun keçirilməsi | Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Gənclər və İdman Nazirliyi, Karate-do Federasiyası | May 2020-ci il |
| 4.5. | Naxçıvan şəhərində 16 yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadasının keçirilməsinin təmin edilməsi | Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Gənclər və İdman Nazirliyi, Şahmat Federasiyası | Oktyabr 2020-ci il |
| 4.6. | Şahmat, güləş, cüdo, karate-do, boks, futbol, voleybol, ağırlıqqaldırma, yüngül atletika, atıcılıq, basketbol, hava və ekstremal idman növləri üzrə Türkiyə və İran İslam respublikaları ilə əməkdaşlığın genişləndirilməsi, yoldaşlıq görüşlərinin keçirilməsi | Gənclər və İdman Nazirliyi, idman federasiyaları | Mütəmadi |
| | **5. Bədən tərbiyəsi və idman sahəsində təminatlar** | | |
| 5.1. | Bədən tərbiyəsi və idman sahəsində xidmətlərə və nailiyyətlərə görə idmançıların əməyinin qiymətləndirilməsi | Gənclər və İdman Nazirliyi, idman federasiyaları | Mütəmadi |
| 5.2. | İdmançıların sosial problemlərinin həlli üçün tədbirlərin görülməsi | Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyətləri, idman federasiyaları | Mütəmadi |
| | **6. İdmanın təbliği sahəsində maarifləndirici tədbirlər** | | |
| 6.1. | Yeniyetmə və gənclər arasında idman növlərinin təbliği ilə bağlı təşviq bukletlərinin hazırlanması, bu sahədə internet saytlarında və sosial şəbəkələrdə təbliğat işlərinin aparılması | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Gənclər Fondu | Mütəmadi |
| 6.2. | İdmanın təbliği ilə bağlı startap layihələrin hazırlanması, müasir texnologiyaların imkanlarından istifadə edilməsi | Gənclər və İdman Nazirliyi, Gənclər Fondu | Mütəmadi |
| 6.3. | Bədən tərbiyəsi və idmanın məhdud fiziki imkanlı gənclərin reabilitasiyasında əhəmiyyəti ilə bağlı maarifləndirici tədbirlərin həyata keçirilməsi | Gənclər və İdman Nazirliyi, Paralimpiya Federasiyası | Mütəmadi |
| 6.4. | İdman yarışlarının keçirilməsinə və təbliğinə "İdman könüllüləri"nin cəlb edilməsi | Gənclər və İdman Nazirliyi, Gənclər Fondu | Mütəmadi |
| 6.5. | İdmanın ayrı-ayrı növləri üzrə maarifləndirici sosial çarxların hazırlanması və təbliği | Gənclər və İdman Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Komitəsi | 2020-2025-ci illər |
| 6.6. | İdmanın təbliği ilə bağlı teleradio və qəzet materiallarının hazırlanması | Muxtar respublikanın kütləvi informasiya vasitələri | Mütəmadi |

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları

*Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti fevral ayının ilk 15 günündə müəyyən qərarlar qəbul etmişdir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti 2020-ci il 6 fevral tarixdə "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi tərəfindən apostil şəhadətnaməsinin verilməsi ilə bağlı məsələlərin tənzimlənməsi haqqında" Qərar qəbul etmişdir.*

Bundan başqa, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 11 fevral tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında 2020-ci il 1 yanvar vəziyyətinə torpaqların növləri, mülkiyyətçiləri və istifadəçiləri üzrə torpaq balansı" təsdiq edilmişdir. Adıçəkilən qərara əsasən 2019-cu ildə mövcud 164 min 335 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsinin 54 min 422 hektarını əkin, 1977 hektarını çoxillik əkmələr, 3040 hektarını biçənək, 302 hektarını dinc, 104 min 594 hektarını isə örüş sahələri təşkil etmişdir. Əvvəlki ilə nisbətən 2019-cu ildə əkin sahəsi 1034, çoxillik əkmələr isə 304 hektar artmışdır. 2020-ci il 1 yanvar vəziyyətinə suvarılan torpaqların sahəsi 62 min 231 hektar olmuşdur ki, bu da ötən illə müqayisədə 799 hektar çoxdur. Bu artım Kəngərli və Şahbuz rayonlarında qapalı suvarma şəbəkəsinin qurulması, Babək, Culfa, Ordubad rayonlarında və Naxçıvan şəhərində meyvə bağlarının, üzümlüklərin salınması və həmin ərazilərin su ilə təmin edilməsi nəticəsində baş vermişdir.

Həmin tarixdə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin 2020-ci ildə yerinə yetirəcəyi aqrotexniki xidmətlərin qiymətləri və yanacaq norması"nın təsdiq edilməsi haqqında da Qərar qəbul edilmişdir.

Eyni zamanda "Hüquqi nəticə yaradan hərəkətləri dövlətin adından həyata keçirən, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yaratdığı publik hüquqi şəxsin (statusu qanunvericiliklə müəyyən edilən, habelə dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki publik hüquqi şəxslər istisna olmaqla) işlər görülməsindən və xidmət göstərilməsindən əldə etdiyi vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) həmin publik hüquqi şəxsin sərəncamında qalan hissəsindən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında Qərar qəbul edilmişdir.

Həmçinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 fevral tarixli 33 nömrəli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 yanvar tarixli 1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Muxtar respublikada əhalinin dinamik artımı davam edir



Son illər muxtar respublikanın sosial-iqtisadi həyatında əldə olunmuş davamlı inkişaf, həyata keçirilən islahatların səmərəliliyi əhalinin yaşayış səviyyəsinin və güzəranının yaxşılaşdırılmasına, əhali artımına əlverişli şərait yaratmışdır.

Muxtar respublikada 1 yanvar 2020-ci il tarixə əhalinin sayı 2009-cu ilin sonu ilə müqayisədə 57,2 min nəfər artaraq 459,6 min nəfər olmuşdur. Ümumi əhalinin 94,5 mini Naxçıvan şəhərində, 117,6 mini Şərur, 76,2 mini Babək, 50,2 mini Ordubad, 47 mini Culfa, 32,8 mini Kəngərli, 25,3 mini Şahbuz, 16 min nəfəri isə Sədərək rayonlarında qeydə alınıb.

Əhalinin 229,6 min nəfərini kişilər, 230 min nəfərini isə qadınlar təşkil edib. Əhalinin 29,5 faizi şəhər, 70,5 faizi isə kənd yerlərində yaşayır.

Muxtar respublikada bir kvadratkilometrə düşən əhalinin sayı 84 nəfər olmuşdur ki, bu da 2009-cu ilin sonu ilə müqayisədə 11 nəfər çoxdur. Əhalinin ən sıx məskunlaşdığı yer Naxçıvan şəhəridir. Burada bir kvadratkilometrə 493 nəfər düşür.

Ötən il muxtar respublikada 5415 körpə doğumu qeydə alınmışdır. Doğulanların 2853-nü və ya 52,7 faizini oğlanlar, 2562-ni və ya 47,3 faizini isə qızlar təşkil etmişdir. Doğulan uşaqlardan 64-ü əkiz olmuşdur. 2019-cu ildə muxtar respublikada doğulan oğlanlarda Yusif, Əli, Hüseyn, Uğur və Məhəmməd, qızlarda isə Fatimə, Nilay, Zəhra, Məryəm və Zeynəb adları üstünlük təşkil etmişdir. Ümumilikdə, son 10 ildə muxtar respublikada 77 min uşaq doğulmuşdur.

2019-cu ildə muxtar respublikada 2656 nikah bağlanmış, nikaha girənlərdə orta yaş həddi kişilərdə 28,3, qadınlarda isə 24 yaş təşkil etmişdir. 2010-cu ildən 1 yanvar 2020-ci il tarixədək muxtar respublikada 29,7 min nikah qeydə alınmışdır.

Əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması ölüm göstəricisini aşağı salmışdır. Muxtar respublikada 2009-cu ildə ölüm göstəricisi əhalinin hər min nəfərinə hesabı ilə 5,3 nəfər olmuşdursa, 2019-cu ildə bu göstərici 4,5 nəfər təşkil etmişdir. Qeydə alınmış bu göstərici ölkənin digər iqtisadi rayonları və Bakı şəhəri ilə müqayisədə ən aşağı səviyyədədir.

1 yanvar 2020-ci il tarixə muxtar respublikada gənclərin sayı 141,6 min nəfərə çatmışdır ki, bu da ümumi əhalinin 30,8 faizini təşkil edir.

Muxtar respublikada insan amilinə verilən dəyər, sağlam ailə – sağlam cəmiyyətin formalaşdırılması istiqamətində aparılan uğurlu siyasət bundan sonra da əhalinin demoqrafik göstəricilərinin yüksəlməsinə müsbət təsir göstərəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

Ziyalı sözü

# Bir insan ömrünə yazılanlar...

*Şərurda çoxlarının "İsa müəllimin məktəbi" adlandırdığı Muğanlı kənd tam orta məktəbində 16 il bundan əvvəl olmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun:* ***"Muğanlı kənd tam orta məktəbi "Muzey məktəb"dir, çox istərdim ki, bu məktəbin gördüyü işlər muxtar respublikanın, hətta Azərbaycan Respublikasının bütün məktəblərində həyata keçirilsin"*** *kimi dəyərli qiymətinin reallığa söykəndiyini görmüşdüm. Şair-publisist, Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi, Prezident mükafatçısı İbrahim Yusifoğlunun "Bir ömrün sorağında" kitabını vərəqlədikdən sonra isə həmin məktəbin 34 il direktoru vəzifəsində çalışmış, məktəbi təkcə Şərur rayonunda, muxtar respublikada deyil, ölkəmizdə tanıtmış Azərbaycan Respublikasının Əməkdar müəllimi İsa Hüseynovla – bu tanınmış ziyalı, el ağsaqqalı ilə yenidən görüşmək, onun ömür yoluna işıq salmaq istəyi ürəyimdə baş qaldırdı. Yadıma ulu öndər Heydər Əliyevin çox qiymətli bir fikri düşdü:* ***"Veteranlar bizim qızıl fondumuzdur"*** *və o anda onu da düşündüm ki, nə yaxşı bu gün həmin qızıl fonda böyük ehtiram göstərilir, onlar ağsaqqal yaşlarında da bizə gərək olduqlarını görürlər.*



Bütün şərurluların böyük hörmət və ehtiram göstərdikləri İsa müəllim ömrünün 69-cu ilindədir. Bu yaşda da özünü gümrah hiss edir, tez-tez məktəbə gedir, həmkarları ilə görüşür, məsləhətlərini verir. İbrahim Yusifoğlunun ona həsr etdiyi "Müəllim ömrü" şeiri yadıma düşür:

*Ən parlaq ulduzu, nur saçan aydı,*
*Dalğalı dənizdi, ləpəli çaydı,*
*Ömrü ömürlərə paylanan paydı,*
*Safdı, müqəddəsdi müəllim ömrü.*

Müəllim ömrünə yazılmış uğurlara asanlıqla nail olunmayıb. Bu uğurların arxasında yuxusuz gecələr, yaradıcılıq axtarışları, sınanılmış təcrübənin və yeniliklərin tətbiqi dayanıb. Kollektivdə kollektivçilik keyfiyyətləri yaratmaq bacarığı, işıq görünən hər kiçik tövsiyəni belə həyata keçirmək, təhsilin səviyyəsini yüksəltməyə xidmət edən yeni üsullardan istifadə İsa müəllimin iş prinsipləri sırasında olub. Fəaliyyəti əvəzsiz qalmayıb. 1994-cü ildə "Ali kateqoriyalı müəllim" adına layiq görülüb, 1995-ci ildə rəhbərlik etdiyi məktəbin iş təcrübəsi yayılıb, bülleten buraxılıb, bir neçə kitabda və mərkəzi mətbuat səhifələrində fəaliyyətinə yüksək qiymət verilib. 2004-cü ildə Azərbaycan müəllimlərinin qurultayına nümayəndə seçilib, 2006, 2008, 2010, 2014, 2015-ci illərdə məktəbin məzunlarının ali məktəbə qəbulunun nəticələrinə görə Muğanlı məktəbinin adı ölkənin ən yaxşı məktəbləri sırasına daxil edilib. 2010-cu il Muğanlı məktəbinin tarixinə qızıl hərflərlə yazılıb. Belə ki, təhsil ocağı "İlin 50 ən yaxşı məktəbi" müsabiqəsinin qalibi olub. Bu məktəbin 10-dan çox məzunu fəlsəfə və elmlər doktoru, hüquq-mühafizə orqanlarının yüksəkrütbəli əməkdaşı, iş adamıdır.

2005-2015-ci ildə 20-dək məzun 500-700 intervalında bal toplayıb, həmin dövrdə Muğanlı kəndindən 23 ailənin bütün övladları ali məktəb bitirib. İyirmiyədək şagird ölkə üzrə keçirilən fənn olimpiadalarında layiqli yerlər tutub.

Müəllim və şagirdlərə verilən fəxri fərmanların isə sayı-hesabı bilinmir...

... 2002-ci ildə "Sabah" nəşriyyatında Cavad Cavadlının çapdan çıxmış "Direktor olmaq istəyirsənsə..." adlı kitabında oxuyuruq: "Məktəbdə möhkəm nizam-intizam bərqərardır. Müəllimlər şagirdlərə şəxsi nümunədirlər. Onlar proqram materiallarını şagirdlərə dərindən mənimsətmək üçün varqüvvələrini sərf edirlər. Təhsilin fərdiləşdirilməsi, demokratikləşdirilməsi keçmiş təlim metodlarından birdəfəlik əl çəkməyə şərait yaradıb. Məktəb psixoloqunun köməyi ilə hər bir şagirdin fərdi xüsusiyyətləri müəyyənləşdirilir. Maraq kursları məqsədyönlü şəkildə keçir. Açıq dərslər müəllimlərin yaradıcılığını, səriştəsini, öz üzərlərində necə çalışmalarını öyrənməyə imkan verir. Bütün bunlara İsa Hüseynov ciddi diqqət yetirir. O öz işini bu və bu kimi istiqamətlər üzrə qurub..."

Belə sətirlərə kitablardan, digər mətbuat orqanlarında dərc olunmuş yazılardan əlavələr gətirə bilərik. Ancaq istəyirik ki, İsa müəllim özü söhbət etsin:

– Naxçıvan ölkəmizin elə bir bölgəsidir ki, həmişə qayğıya ehtiyacı olub. Tarixin müxtəlif dönəmlərinə nəzər salsaq, bu ehtiyacın vaxtilə heç orta səviyyədə belə ödənilmədiyini görərik. Yalnız ümummilli liderimiz Heydər Əliyev respublikamıza hakimiyyətə gələndən sonra regiona olan münasibət kökündən dəyişdi. O illərdə Naxçıvanın inkişafının təməli qoyuldu. Bu inkişafa yeni vüsət verən daha böyük yüksəlişə isə 1995-ci ildən başlanıldı. Bu gün muxtar respublika həyatının elə bir sahəsi yoxdur ki, orada genişhəcmli layihələr həyata keçirilməsin, uğurlar qazanılmasın. Dahi öndərlə başlanılan yol bu gün qədim diyarı sürətli tərəqqiyə gətirib çıxarıb.

İsa müəllim Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin: ***"Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar"*** sözlərini xatırladaraq söhbətinə davam edir:

– Muxtar respublikamızın sakinləri torpağa bağlı, zəhmətdən qorxmayan, necə deyərlər, daşdan pul çıxarmağı bacaran insanlardır. Üstəgəl, Naxçıvan öz yeraltı və yerüstü sərvətləri, bərəkətli və məhsuldar torpaq sahələri ilə ölkə səviyyəsində ən zəngin bir diyardır. Gəlin görək, bu gün həmin sərvətlərdən necə istifadə olunur? Burada da bir məsələni xatırlamağa dəyər: iş təkcə onunla bitmir ki, muxtar respublikada güclü iqtisadiyyata nail olmaq üçün geniş potensial var. Məsələ bu potensialdan necə istifadə etməkdir ki, bunun da son illərdə öz həllini tapması hesabına iqtisadiyyatımız xeyli güclənib. Bu gün bir qarış torpağımız belə əkilməmiş qalmır. Kənd təsərrüfatının inkişafına böyük diqqət yetirilir. Hər il muxtar respublikada genişmiqyaslı meliorasiya tədbirləri həyata keçirilir, regiona yeni kənd təsərrüfatı texnikaları gətirilir. Taxılçılığın, kartofçuluğun, heyvandarlığın və digər sahələrin inkişafı üçün yardımlar verilir. Digər tərəfdən yeni emal və istehsal sahələrinin fəaliyyəti genişləndirilir. Bu müəssisələrin məhsulları daxili bazarda yerli istehsalın çəkisini artırıb. Bəzi məhsullarımız ixrac olunur. Rəqabətədavamlı məhsul istehsalı üçün layihələr həyata keçirilir. Külli miqdarda kreditlər verilir. Bu isə sosial-iqtisadi sahədə xüsusi çəkisi olan sahibkarlığın inkişafında mühüm amillərdən biridir, həm də minlərlə yeni iş yerinin açılmasına şərait yaradır. Bir iş yeri isə bir ailənin yaşayış səviyyəsinin yüksəlməsi deməkdir. Dövlətin dayağı onun insanlarıdır. İnsanların ehtiyacının ödənilməsi isə onların muxtar respublikada güclü iqtisadiyyata nail olunmasında fəallığını artırıb. Güclü iqtisadiyyatı olan diyarda inkişafı bütün sahələrdə görmək mümkündür.

Sözünü kəsmək istəməsəm də, ona bu sualı verməkdən özümü saxlaya bilmirəm:

– Bəs təhsil sahəsi necə?

– Uzun illər bu sahədə çalışmışam. Onu bilirəm ki, təhsilin dünənini bu günü ilə müqayisə etməyə dəyməz. Bəzən düşünürəm: muxtar respublikanın elə bir ucqar dağ və kənd yaşayış məntəqəsi olan rayonun bütün idarə, müəssisə və təşkilatları müasir iş şəraiti ilə təmin edilən yeni binalarda fəaliyyət göstərir. Rayon mərkəzindəki Heydər Əliyev prospektindəki park şərurluların ən çox üz tutduğu ünvanlardan biridir.

Coğrafi relyefinə görə Şərurun kəndləri aran və dağlıq zonalarda, Araz qırağında yerləşir. Qürurverici hal ondadır ki, bu gün Şərurun yaşayış məntəqələrinin hamısına müasir yollar salınıb, körpülər tikilib, yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri həyata keçirilib. Kənd təsərrüfatının inkişafına yaşıl işıq yandırılıb. Bütün bunlar şərurluların qurub-yaratmaq əzmini yüksəldib, onların yaşayış səviyyəsini xeyli yaxşılaşdırıb.

İsa müəllim onu da dilə gətirir ki, Şərurun son illərdəki tarixinə qızıl hərflərlə yazılan ən böyük hadisələrdən biri də Günnüt kənsərhəd yaşayış məntəqəsi yoxdur ki, orada təhsilin inkişafı üçün nə isə edilməsin. Hələ belə ünvanlarda şəhərdə, rayon mərkəzlərində tikilmiş məktəb binalarından seçilməyən, ən azından ikimərtəbəli binaları demirəm. Bu ünvanlarda necə şərait yaradılıb? – sualının cavabı birmənalıdır. Müasir kompüter dəstləri, elektron lövhələr, zəngin kitab fondu olan kitabxanalar, idman zalları... Hansını deyim? Distant təhsil, interaktiv dərslər. Məhdud fiziki imkanlıların cəmiyyətə inteqrasiyası ilə bağlı görülən işlər dünən kiminsə yuxusuna belə girməzdi.

Bu gün elə bir orta təhsil müəssisəsi yoxdur ki, oradan ali məktəblərə qəbul olmasın. Bütün bunlar qədim diyarımızda təhsilin prioritet vəzifə olduğunu bir daha təsdiqləyir. Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri və qarşıda duran məsələlər barədə keçirilən müşavirə, eləcə də hər il ali məktəblərə yüksək ballarla qəbul olunan tələbələrlə görüşlərin təşkili onu deməyə əsas verir ki, muxtar respublikada artıq kəmiyyət yox, daha çox təhsilin keyfiyyəti diqqətə çəkilir.

Elə digər sahələrdə də, necə deyərlər, baş verən böyük inqilabi dəyişikliklər bu gün qəlbimizi fərəhlə doldurur. Burada da düşünməli olursan: Naxçıvan elə Naxçıvandır, torpaqları, təbii sərvətləri, soyuq qışı, isti yayı olan Naxçıvan. Bəs niyə sovet dönəmində bu işlərin heç 10-15 faizinə bərabər iş görülməyib? O illərdən bu qədim diyara nə qalıb? Hər beşillikdən bir-iki məktəb, mağaza və ya o vaxtın kolxoz və ya sovxoz idarələrinin binaları. Bu gün muxtar respublikada bir ildə ovaxtkı beşillikdən beş dəfə artıq işlər görülür.

İsa müəllim bildirir ki, Naxçıvanın hər bir guşəsi onun üçün əzizdir. Ən azından bu yurd yeri ölkəmizi dünyada tanıdan ulu öndərin Vətənidir. Bu gün dahi şəxsiyyətin müəyyənləşdirdiyi siyasətə böyük ehtiramın ifadəsidir ki, Naxçıvan özünün firavan günlərinə qovuşub. İndi Şahbuzun ən ucqar dağ kəndində tikilmiş məktəb binası Culfa şəhərinin mərkəzində tikilmiş təhsil ocağının binasından seçilmir. Bütün bunlar muxtar respublika rəhbərinin Naxçıvanın hər bir guşəsinə eyni qayğı, eyni məhəbbətlə yanaşmasının ifadəsidir.

Həmsöhbətim doğulub boya-başa çatdığı Şərurun dünəni və bu gününü də konkret faktlarla müqayisə edir: – Bir vaxtlar ucqar əyalət yaşayış məntəqəsindən seçilməyən bu yurd yeri müasirlik donundadır. 60-dan yuxarı dinin erməni qəsbkarlarından alınmasıdır. Həmsöhbətim bunun muxtar respublikamızda aparılan çoxillik ordu quruculuğu nəticəsində mümkün olduğunu bildirərək deyir ki, rayonun inzibati xəritəsində özünəməxsus yer tutan bu yaşayış məntəqəsi əkinçilik, maldarlıq, arıçılıq üçün münbit torpaqlara malikdir. Artıq o kənddə də qaynar həyatın bərpası muxtar respublikada vətənpərvərliyin, doğma yurd yerlərinə bağlılığın göstəricisidir, – deyən İsa müəllim əsarətdə olan digər torpaqlarımızın da geri alınacağını böyük əminlik və ruh yüksəkliyi ilə vurğulayır.

Bu vaxt həyat yoldaşı Bəsti xanım süfrəyə çay gətirir. 50 ilə yaxın birgə ömür sürən bu insanların övladlarını da cəmiyyət üçün gərəkli fərdlər kimi yetişdirdiklərini düşünürəm. İsa müəllimdən onlar barədə danışmağı xahiş edəndə nurlu çöhrəsinə təbəssüm qonur:

– 2 oğul, 3 qız böyütmüşük. Hamısı ali təhsil alıb, ailə qurublar. Hər iki oğlum orta məktəbi fərqlənmə attestatı ilə bitirib, Azərbaycan Tibb Universitetinə daxil olub, orada da göstərilən etimadı doğruldublar. Qızlarımın biri Naxçıvan Dövlət Universitetini, ikisi Naxçıvan Müəllimlər İnstitutunu bitirərək atalarının yolu ilə gedir, müqəddəs müəllim peşəsində çalışırlar.

İsa müəllimlə söhbət bir el ağsaqqalının ürək sözlərini yadıma saldı: televizoru açırsan, haradasa məktəb, haradasa həkim ambulatoriyası, hərbi hissə üçün əsgər yataqxanası, ucqar dağ kəndində xidmət mərkəzi və ya nasos stansiyasının açılışını görürsən. Açılışlara toplanan insanların üzləri gülür, çöhrələri təbəssümə bürünür. Bu təbəssüm muxtar respublikanın inkişafını ən yüksək səviyyədə təmin edən, bu qədim diyarı intibaha qovuşduran Ali Məclis Sədrinə minnətdarlıq ifadəsidir.

İsa Hüseynovun söhbətində nə qədər böyük həqiqət olduğunu isə, əziz oxucu, sən də təsdiq edərsən. Çünki sən də düzgün seçilmiş yolun necə gedildiyini görürsən, bu yol sənin həyatında da böyük dəyişikliklər yaradıb, sən də üzündə təbəssüm o açılışlarda iştirak edirsən və təbii ki, bu yolun əbədi olmağını arzulayırsan. Bu yolda hər bir naxçıvanlı öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə səy göstərir. Bilir ki, bütün bunlar onu, onun ailəsinin, qohum-əqrəbasının, sənin, mənim, hamımızın sabahı üçündür. İsa Hüseynov da həyatını belə qurub. Onun ömrünə yazılanlar bir ziyalı həyatının yaşantılarıdır və İsa müəllimi hamımız üçün sevimli insana çevirib.

Muxtar MƏMMƏDOV

## Ötən ay muxtar respublika muzeylərinə 238 yeni eksponat təqdim edilmişdir

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və tabe müəssisələr tərəfindən yanvar ayında tarixi və əlamətdar günlərlə, tanınmış şəxsiyyətlərin anım günləri və yubileyləri ilə əlaqədar tədbirlər, ustad, interaktiv, açıq dərslər keçilmiş, seminar-treninq və ekskursiyalar, kitab müzakirələri təşkil olunmuşdur.*



Ötən ay "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı "Əllə toxunmuş xalçaların reyestri sistemi"nə daxil edilmək üçün 6 xalça haqqında məlumat hazırlanmışdır.

Muxtar respublika muzeylərinə 238 yeni eksponat təqdim edilmiş, muzeyləri 30 min 34 tamaşaçı ziyarət etmişdir ki, onlardan 7 mindən çoxu əcnəbi vətəndaş olmuşdur.

Yanvar ayında Naxçıvan şəhərində, eləcə də Culfa və Kəngərli rayonlarında fəaliyyət göstərən kitabxana əməkdaşları üçün 5 günlük təlim kursları təşkil edilmiş, muxtar respubikanın kitabxanalarında yeni oxucu sayı 341, oxucu gəlişi 9212 nəfər, kitab verilişi isə 47 min 282 nüsxə olmuşdur. Hesabat dövründə klub və mədəniyyət evi işçiləri üçün keçirilən dərnəklərdə rəqs, dram, yallı, rəssamlıq üzrə kurslar təşkil edilmişdir.

Ötən ay Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı Elçin Əfəndiyevin "Teleskop" əsəri əsasında hazırlanmış tamaşanı stasionarda nümayiş etdirmiş, Nəbi Xəzrinin "Burla xatun" əsəri əsasında tamaşanın məşqlərinə başlanmışdır. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında "Qorxaq Əhməd" tamaşasının və "Novruz gəlir" kompozisiyasının məşqləri aparılmış, Naxçıvan Dövlət Uşaq Teatrında "Mavi işıq" tamaşasının və "Kosanın toyu" kompozisiyasının məşqləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Qaliblər mükafatlandırılıb





Naxçıvan Muxtar Respublikası Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən "Məktəblilərin dram müsabiqəsi"nin və digər müsabiqələrin qaliblərinin mükafatlandırılması ilə bağlı tədbir keçirilib.

Tədbirdə Təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, "Məktəblilərin dram müsabiqəsi" birgə layihə kimi artıq ikinci ildir, keçirilir. Müsabiqənin keçirilməsində əsas məqsəd şagirdlərdə mütaliə və nitq mədəniyyətinin formalaşdırılması, onların özünü cəmiyyətdə müstəqil şəkildə düzgün ifadə etmələri, "Oxunması zəruri olan kitabların Siyahısı"nda olan əsərlərin, Azərbaycan və dünya xalqlarının şifahi xalq ədəbiyyatının məktəblilər arasında təbliği, yetişməkdə olan nəslin maraq və bacarıqlarının, intellektual səviyyə və yaradıcı qabiliyyətlərinin aşkarlanması olub.

Nazir vurğulayıb ki, 3 mərhələdə keçirilən müsabiqədə 127 məktəb üzrə 900-ə yaxın şagird iştirak edib. Əsərlərdən səhnələşdirilən parçalar münsiflər heyəti tərəfindən qiymətləndirilib. Şagirdlərin hazırladıqları səhnələrin tərtibatı, bəhs olunan dövrlə səsləşən geyim və aksesuarlardan istifadə etmələri, əsərlərin mahiyyəti və ideyasını tamaşaçıya çatdıra bilmələri, dialoq və kompozisiyaları canlı ifa etmələri onu deməyə əsas verir ki, müsabiqə yüksək səviyyədə təşkil edilib.

Diqqətə çatdırılıb ki, bu gün məktəblərdə yaradılan laboratoriyalar şagirdlərin tədqiqatlar aparmasına, yeni informasiya texnologiyalarından istifadə etmələrinə geniş imkanlar açır. Belə əlverişli şəraitdən səmərəli istifadə etmək məqsədilə fənn müəllimləri laborator təlimlərə, 50-dən çox şagird isə "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində tədqiqatlara cəlb ediliblər. Görülən işlərin və göstərilən dövlət qayğısının nəticəsidir ki, muxtar respublika məktəbliləri ilk dəfə olaraq "Sabahın alimləri" IX Respublika müsabiqəsinə qatılıblar. 11-13 fevral tarixlərdə Bakı şəhərində keçirilən həmin müsabiqədə Azərbaycan üzrə 187 layihə içərisində Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin XI sinif şagirdləri Siyavuş Bağırov və Araz Qulusoy tərəfindən hazırladıqları layihə ilə III yerə layiq görülüblər.

Tədbirdə çıxış edən Mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, son illər muxtar respublikanın yaşayış məntəqələrində fəaliyyət göstərən klub müəssisələrində dram dərnəklərinin yaradılması və təhsil müəssisələrinin buna qoşulması, buradakı canlanma, təhsil və mədəniyyət ocaqlarında teatr sənətinə olan marağın artması sevindirici haldır. Həmin dram dərnəkləri muxtar respublikadakı mövcud xalq teatrları üçün əsaslı baza rolunu oynamaqdadır. İstedadlı yeniyetmə və gənclərin aşkar edilməsi ilə xalq teatrlarının, gələcəkdə isə professional teatrın inkişafına xidmət deməkdir.

Nazir vurğulayıb ki, V-XI sinif şagirdləri arasında keçirilən "Məktəblilərin dram müsabiqəsi" şagirdlərin estetik zövqünün və bədii qiraət bacarığının formalaşmasına, nəhayət, muxtar diyarımızda teatr sənətinə olan marağın gücləndməsinə dəyərli töhfə olacaqdır.

Müsabiqənin seçim mərhələlərində münsiflər heyətinin üzvü kimi iştirak edən Yazıçılar Birliyinin sədri Asim Əliyev çıxışında deyib ki, belə tədbirlərin təşkili şagirdlərdə ədəbiyyata, xüsusən də dram əsərlərinə marağın oyanmasına səbəb olur.

Qeyd edək ki, "Məktəblilərin dram müsabiqəsi"ndə Şahbuz rayon Yuxarı Qışlaq kənd tam orta məktəbinin hazırladığı "Kitabi-Dədə Qorqud" dastanı və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyi Moris Meterlinkin "Göy quş" əsəri ilə III, Culfa rayon Əbrəqunus kənd tam orta məktəbi təqdim etdiyi Səməd Vurğunun "Vaqif" dramı ilə II yerlərə layiq görülüblər. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin kollektivi isə Moris Meterlinkin "Göy quş" əsəri ilə I yerin qalibi olub. Qaliblər təşkilatçılar tərəfindən diplom və oxunması zəruri olan kitablarla mükafatlandırılıblar.

Tədbirdə, eyni zamanda "Sabahın alimləri" IX Respublika müsabiqəsinin iştirakçıları və qalibləri, onların elmi rəhbərləri, Moskvada keçirilən məktəblilərin "Elmə start" VIII Beynəlxalq elmi-tədqiqat və yaradıcılıq müsabiqəsinin birinci mərhələsində iştirak edən, "Naxçıvan Muxtar Respublikasının bəzi yeraltı sularının minerallığının təyini" adlı layihə ilə diploma layiq görülən Naxçıvan Qızlar Liseyinin IX sinif şagirdi Nuray Məmmədova, onun elmi rəhbəri Fizzə Məmmədova Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən diplom və hədiyyə ilə mükafatlandırılıblar.

Sonra "Məktəblilərin dram müsabiqəsi"nin seçim mərhələləri ilə bağlı hazırlanan videoçarx təqdim edilib və müsabiqənin qalibi olan məktəblərin hazırladıqları səhnələrə baxılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*2019-cu il ərzində muxtar respublika üzrə nümunəvi sərnişindaşıma xidməti göstərən sürücülərin mükafatlandırılması ilə bağlı keçirilən tədbiri giriş sözü ilə Dövlət Nəqliyyat Xidmətinin rəisi Əli Hüseynəliyev açıb.*

## Nümunəvi fəaliyyət göstərən sürücülərin əməyi qiymətləndirilib

Bildirib ki, muxtar respublikada nəqliyyatın inkişafına göstərilən qayğı daimi xarakter alıb. Bunun ifadəsidir ki, ötən müddət ərzində Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin maddi-texniki bazası möhkəmləndirilib, yeni gətirilmiş avtobusların hesabına sərnişindaşıma xidmətinin keyfiyyəti daha da yüksəldilib. Hazırda muxtar respublika üzrə 313 avtobus, 496 taksi olmaqla, ümumilikdə, 800-dən artıq avtonəqliyyat vasitəsilə sərnişinlərə nümunəvi xidmət göstərilir.

Beynəlxalq sərnişindaşıma xidmətinin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərdən də danışan Əli Hüseynəliyev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərmanına əsasən ötən il ərzində 800-dən artıq sahibkara lisenziya verilib.

Diqqətə çatdırılıb ki, Dövlət Nəqliyyat Xidməti tərəfindən mütəmadi olaraq nümunəvi xidmət göstərən, eləcə də ucqar dağ və sərhəd kəndlərinə işləyən sürücülərin fəaliyyətləri qiymətləndirilir.

Sonra 2019-cu il ərzində nümunəvi sərnişindaşıma xidməti göstərən 60 sürücüyə müxtəlif nominasiyalar üzrə diplom, fəxri fərman və qiymətli hədiyyələr verilib. "İlin ən yaxşı sürücüsü" nominasiyası üzrə Naxçıvan şəhərdaxili 5 nömrəli marşrutun sürücüsü Duman Nəcəfov, "İlin ən yaxşı avtobus sürücüsü" nominasiyası üzrə Culfa-Naxçıvan marşrutunun sürücüsü Vaqif Quliyev və "İlin ən yaxşı taksi sürücüsü" nominasiyası üzrə isə Şərur rayonundan İlqar Mustafayev təltif olunublar.

Sonra tədbir iştirakçıları Xatirə Muzeyini ziyarət ediblər.

✍ **Nail ƏSGƏROV**

## Gənclərin sevimli məkanından...



***Ağbulaq İstirahət Mərkəzi yarandığı gündən gənclərin sevimli məkanına çevrilib. Burada mütəmadi olaraq xidmət növlərinin istər sayında, istərsə də keyfiyyətində təkmilləşmə işləri aparılır. Bu il də mərkəz müxtəlif əyləncələrlə qış istirahətini sevənlərin könlünü oxşayır. Xüsusilə dağ-xizək turizmi üçün ideal məkana çevrilməkdə olan Ağbulaq dağlarını yüksəklikdən seyr etmək imkanı da yaradılır.***

İstirahət mərkəzində xidmətlərin sayının artmasına, keyfiyyətinin yüksəlməsinə baxmayaraq, qiymətlərdə dəyişiklik olmayıb. Ümumiyyətlə, müxtəlif növ əyləncələrdən istifadə etmək istəyənlər üçün qiymətlər təklif olunan xidmətlərə uyğun dəyişir. Mərkəzdə muxtar respublika turizm potensialının regional və beynəlxalq səviyyədə tanıdılması, xarici turistlərə çatdırılması məqsədilə il ərzində müxtəlif sərgi, konfrans, seminar və bu kimi digər tədbirlər təşkil olunur. Bu tədbirlər mərkəzin turizm imkanlarının təbliği ilə yanaşı, innovativ təcrübələrin öyrənilməsi və digər amillər baxımından da önəm kəsb edir.

Son illər muxtar respublikada turizmin ümumi dinamik inkişafı fonunda xarici turistlərin ən çox ziyarət etdiyi yer olan Ağbulaq İstirahət Mərkəzini fərqləndirən əsas amillərdən biri də daim xidmət keyfiyyətinin öndə olması, turistlərin zövqlü mənəvi istirahətinin təmin edilməsi üçün işçi heyətinin var gücü ilə çalışmasıdır. Xidmət heyətinə mütəmadi olaraq təlimlər keçirilir, hər bir turistə fərdi yanaşmaya əsaslanan xidmət göstərmək bacarıqları təlqin edilir.

Hər il olduğu kimi, cari ildə də muxtar respublikanın fəal gənclərinin iştirakı ilə Ağbulaq İstirahət Mərkəzində növbəti "Qış məktəbi"nə start verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurası, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən bu tədbirdə muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və fəal gənclər iştirak ediblər.

Proqrama əsasən gənclər ilk gün mərkəzlə yaxından tanış olub, stolüstü idman, "Vətəni tanı", "Axtar tap" və "Xəmsə" intellektual oyunlarında mübarizə aparıblar. Hər günün sonunda isə onlar üçün film nümayiş etdirilib. Bununla yanaşı, "Qış məktəbi"ndə gənclər, eyni zamanda məktəb iştirakçıları arasında keçirilən fotomüsabiqənin qalibləri mükafatlandırılıb.

"Qış məktəbi"ndə olduğumuz müddətdə psixoloq Əsmər Rzayevanın "Özgüvənin həyatımızda rolu" mövzusunda fərdi inkişaf təlimi daha çox diqqətimizi cəlb etdi. Gənclərin psixoloji durumu, eyni zamanda onların zərərli vərdişlərdən uzaq olması barədə aparılan təlim təqdirəlayiq idi. Xüsusilə fəal gənclərin psixoloqa sualları təlimə marağı daha da artırırdı.

"Gənclərdə büdcə savadlılığı" mövzusunda keçirilən seminarda isə iştirakçıların daha çox israfçılıq və bundan çıxış yolları mövzusunda dialoqlarına şahidlik etdik.

Günün sonunda fəal gənclərin "Qış məktəbi" haqqında fikirlərini öyrəndik:



**Səma Xəlili – Naxçıvan Dövlət Universitetinin tələbəsi, könüllü gənc:** – Gənclər üçün təşkil olunan "Qış məktəbi"ndə ilk dəfədir, iştirak edirəm. Deyə bilərəm ki, burada bizim üçün hər bir şərait yaradılıb. Gün ərzində keçirilən oyunlarda, seminarlarda iştirak edir, fikir mübadiləsi aparırıq. Gənclərin bir araya gəlməsi onlar arasında dostluq münasibətlərinin də qurulmasına imkan yaradır. Bu şəraiti bizim üçün yaradanlara minnətdarlığımızı bildiririk.



**Elvin Məmmədli – könüllü gənc:** – Bu gün muxtar respublikamızda könüllülərin iştirak etmədiyi bir sahə yoxdur. Qürurverici haldır ki, könüllülük fəaliyyətlərini Vətənə, dövlətə, xalqa dəstək, vətəndaşlıq mövqeyinin göstəricisi kimi görən naxçıvanlı gənclər heç də dünyanın inkişaf etmiş ölkələrinin könüllülərindən geri qalmırlar. Ağbulaq İstirahət Mərkəzində biz gənclər özümüzdə yeni xüsusiyyətlər kəşf etməklə xoş və yaddaqalan anlar yaşadıq. Könüllülük zamanı əldə etdiyimiz təcrübə gənclik illərimizdə ən böyük qazancımız olaraq qalacaq.



**Pünhan Məmmədli – "Naxçıvan" Universitetinin tələbəsi:** – Ağbulaq mənim üçün ideal bir məkandır. Buradakı mənalı istirahət biz gəncləri fəaliyyətimizi daha zövqlə, həvəslə davam etdirməyə, gələcəyə ümidlə baxmağa ruhlandırır. Yeni tanışlarla ünsiyyət və fikir mübadilələri bizə çox şey öyrətdi. Təşkil olunan intellektual oyunlar və keçirilən seminarlar bilik səviyyəmizin artmasına səbəb oldu. Mərkəzdə Ağbulaq kəndinin füsunkar qış gözəlliklərini, təbiətinin ən xırda detallarını fotoaparatın yaddaşına həkk etdim. "Qış məktəbi"nin hər bir gəncin həyatında silinməz izlər qoyacağına inanıram.



**Aysun Nağdəliyeva – Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi, könüllü gənc:** – "Qış məktəbi" bizim üçün yaddaqalan oldu. Bu müddət ərzində istirahətimiz mənalı keçdi. Ağbulağın gözəlliyini seyr etdik, yeni rəfiqələr, dostlar tapdıq. Aparılan söhbətlərdə vaxtın düzgün tənzimlənməsini, hər bir uğurlu işin arxasında gərgin əməyin və məsuliyyətin dayandığını öyrəndik. Ölkəmizdə bu il "Könüllülük ili" elan olunub. Könüllülük hər bir gəncin həyatında ilkin mərhələdir və bu fəaliyyət biz gənclərin qarşısında hər zaman geniş imkanlar açacaq. Dövlətin, muxtar respublika rəhbərinin gəncliyə diqqət və qayğısını hər an hiss edirik. Gənclər adından bütün bunlara görə minnətdarlığımızı bildiririk.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 165